**Dövlət Statistika Komitəsində İnformasiya təhlükəsizliyinə dair maarifləndirmənin genişləndirilməsi mövzusunda seminar keçirilmişdir.**



04 oktyabr 2013-cü il tarixində "Azərbaycan 2020:gələcəyə baxış" inkişaf konsepsiyası çərçivəsində "Dövlət Statistika Komitəsində informasiya təhlükəsizliyinə dair maarifləndirmənin genişləndirilməsi" mövzusunda seminar keçirilmişdir. Seminarı giriş nitqi ilə Dövlət Statistika Komitəsinin sədr müavini Y.Yusifov açaraq, müasir dövrdə informasiyanın və onun təhlükəsizliyinin bütün cəmiyyət, eyni zamanda Dövlət Statistika Komitəsi üçün ən prioritet məsələlərdən biri olduğunu qeyd etmişdir. Daha sonra Baş Hesablama Mərkəzinin direktor müavini F.Cəlilov Dövlət Statistika Komitəsində informasiya sistemlərinin təhlükəsizliyi mövzusunda mühazirə ilə çıxış etmişdir. O, öz çıxışında Komitədə informasiya təhlükəsizliyinin texniki təminatı, serverlərin iş prinsipləri, fərdi kompyuterlərdə informasiya itkisinin qarşısının alınması yolları və antiviruslar haqqında seminar iştirakçılarına geniş məlumat vermişdir.

İnformasiya təhlükəsizliyinin hüquqi təminatı mövzusunda çıxış etmək üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Hüquq və kadrlar şöbəsinin müdiri B.Məmmədov tədbirə dəvət olunmuşdur. O, çıxışı zamanı Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin hüquqi təminatı, bu sahədə olan qanunvericilik aktları, kibercinayətkarlıq və onun təzahür formaları, kibercinayətkarlığa qarşı mübarizə tədbirləri haqqında məlumat vermişdir. Daha sonra Dövlət Statistika Komitəsində informasiya mübadiləsi, informasiyanın təhlükəsizliyinin təmin olunması, məlumatların arxivləşdirilməsi və surətlərinin çıxarılması haqqında Baş Hesablama Mərkəzinin Məlumat Bazaları Texnologiyalarının tətbiqi şöbəsinin rəis müavini S.Hacıyeva məlumat vermişdir. Dövlət Statistika Komitəsində informasiya mübadiləsi, informasiyanın təhlükəsizliyinin təmin olunması zamanı yaranan problemlər haqqında isə Dövlət Statistika Komitəsinin Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdir müavini Ç.Əliyeva çıxış etmişdir. Tədbirin sonunda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.